eryica

# Avropa Gəncləri Məlumatlandırma Xartiyası

27 aprel 2018-ci ildə Kaskaisdə (Portuqaliya) keçirilən
Avropa Gəncləri Məlumatlandırma və Məsləhət Agentliyinin (EYRICA)
29-cu Baş Assambleyası tərəfindən qəbul edilmişdir

## Preambula

Biz bir çox çağırış və imkanlarla üzləşdiyimiz mürəkkəb, rəqəmsal cəmiyyətlərdə və sıx qarşılıqlı əlaqələrin olduğu dünyada yaşayırıq. Avropa və ondan kənarda yaşayan gənclər üçün informasiyaya çıxış, təhlili və ondan istifadə etmək qabiliyyətinin əhəmiyyəti getdikcə artır. Gəncləri məlumatlandırma işi onlara öz istəklərini əldə etmələrində kömək edir və fəal üzv kimi cəmiyyət həyatında onların iştirakını təşviq edir. İnformasiya gənclərə əlçatan olan seçimləri genişləndirəcək, gənclərin muxtariyyətini təşviq edəcək və onların imkanlarını artıracaq şəkildə təmin edilməlidir.

Demokratiyaya hörmət, insan haqları və fundamental azadlıqlar gənclərin bütün sual və ehtiyacları ilə əlaqədar müfəssəl, obyektiv, anlaşıqlı və etibarlı informasiyayaya çıxış hüquqlarını da nəzərdə tutur. İnformasiya hüququ Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Uşaq hüquqları haqqında Konvensiya, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasında, eləcə də gənclər və onların həmin hüquqlara əlçatanlığına dair informasiya və məsləhətlərin qeyd olunduğu Avropa Şurasının N°(90) 7, CM/Rec(2010)8 və CM/Rec(2016)7 tövsiyə sənədlərində tanınmışdır. Bu hüquq eyni zamanda, Avropa İttifaqı tərəfindən həyata keçirilən gənclərin məlumatlandırılması fəaliyyətləri üçün də əsas təşkil edir.

Geniş profildə həyata keçirilən gəncləri məlumatlandırma işi gəncləri maraqlandıran bütün mövzuları əhatə edir və spektrinə növbəti fəaliyyət növləri daxildir: gəncləri cəlb etmək və onların imkanlarını artırmaq məqsədilə məlumatlandırma, məşvərət, dəstək göstərilməsi, koçinq, təlimlərin təşkili, həmyaşıdlar arasında əlaqənin yaradılması, şəbəkələşmə və ixtisaslaşmış xidmətlərə istiqamətləndirmə. Bu fəaliyyətlər gənclər üçün məlumat mərkəzləri tərəfindən və ya digər struktur və mühitlərdəki gənclər üçün məlumat xidmətləri vasitəsi həyata keçirilə bilər. Bu Xartiyanın prinsipləri geniş profildə həyata keçirilən gəncləri məlumatlandırma işinin bütün formalarına tətbiq edilmə niyyətilə hazırlanmışdır. Bu prinsiplər hər bir ölkədə gənclər siyasətinin ayrılmaz hissəsi kimi qurulmalı olan gəncləri məlumatlandırma işinə müfəssəl, resurslarla təmin edilmiş, ardıcıl və koordinəli bir yanaşmanın elementi kimi minimum standartlar və həmçinin, keyfiyyətin ölçülməsi üçün zəmin hazırlayır.

# Prinsiplər

## 1. MÜSTƏQİL

1. 1. Təklif edilən məlumatlar müfəssəldir, mövcud fərqli seçimlərin icmalını təqdim edir və pluralist və təsdiqlənmiş mənbələrə əsaslanır.
1. 2. Təklif edilən informasiya hər hansı dini, siyasi, ideoloji və ya kommersiya təsirindən asılı deyil.
1. 3. Gəncləri məlumatlandırmaq üçün maliyyə mənbələri bu Xartiyanın heç bir prinsipinin tətbiqini təhlükəyə atmır.

## 2.ƏLÇATAN

2. 1. Gəncləri məlumatlandırma xidmətləri məlumata çıxışda bərabərliyə zəmanət verir.
2. 2. Gəncləri məlumatlandırma mərkəzləri və xidmətləri gənclər tərəfindən asanlıqla əlçatandır, onar üçün görünür və cəlbedicidir.
2. 3. Gənclərin məlumatlandırılması gənclər üçün başa düşüləndir, anlaşıqlıdır.

## 3. İNKLÜZİV

3. 1. Gəncləri məlumatlandırma xidmətləri hər hansı bir ayrı-seçkilik olmadan bütün gənclər üçün açıqdır.
3. 2. Gəncləri məlumatlandırma xidmətləri bütün gənclər üçün ödənişsizdir.
3. 3. Gəncləri məlumatlandırma mərkəzləri və xidmətləri fərqli qruplar və müxtəllif növ ehtiyaclara müvafiq və səmərəli olmaq məqsədilə bütün gəncləri əhatə etməyə çalışır.

## 4. EHTİYACLARA ƏSASLANAN

4. 1. Gəncləri məlumatlandırma xidmətləri gənclərin ehtiyaclarına əsaslanır.
4. 2. Mövcud informasiya gənclər üçün əhəmiyyət daşıyan bütün mövzuları əhatə edir.
4. 3. Hər bir isitfadəçiyə fərd olaraq hörmət edilir və hər suala verilən cavab səmərəli və müvafiq olmaq məqsədilə fərdiləşdirilir.
4. 4. Gəncləri məlumatlandırma strukturları fərdiləşdirilmiş dəstək və xidmətləri təmin vermək üçün kifayət qədər insan resursuna malikdir.

## 5. SƏLAHİYYƏTLƏRİN GÜCLƏNDİRİLMƏSİ

5. 1. Gəncləri məlumatlandırma xidmətləri gənclərin səlahiyyətlərini artırır və onların müstəqilliklərini gücləndirir.
5. 2. Gəncləri məlumatlandırma xidmətləri təhlükəsiz və məsuliyyətli şəkildə hərəkət edə bilmələri üçün gəncləri media və informasiya savadlılığı bacarıqları ilə təmin edir.
5. 3. Gəncləri məlumatlandırma xidmətləri aktiv vətəndaşlıq və iştirakı təşviq edir.

## 6. İŞTİRAKÇI

6. 1. Gənclər gəncləri məlumatlandırmanın hazırlanması, yayılması və qiymətləndirilməsində müxtəlif səviyyə və formalarda iştirak edirlər.
6. 2. Gəncləri məlumatlandırma xidmətləri həmyaşıdlar arasında fəaliyyətlər üçün platformalar təklif edir.
6. 3. Gənclər gəncləri məlumatlandırma xidmətlərinin davamlı inkişafının tərkib hissəsi olaraq fəaliyyətlərə dair öz rəylərini bildirməyə təşviq olunurlar.

## 7. ETİK

7. 1. Gəncləri məlumatlandırma xidmətləri gənclərin gizlilik, məxfilik və anonimlik hüquqlarına hörmət edir. Gəncləri məlumatlandırma xidmətləri gənclər üçün təhlükəsiz mühit təmin edir.
7. 2. Məlumat seçmək meyarları ictimaiyyətə açıq və başa düşüləndir. Məlumatın müəllifi və məqsədi aydın və görünəndir.
7. 3. Hazırlanan və ya yayılan bütün məlumatlar dəqiq, tam, aktual və yoxlanmışdır.

## 8. PEŞƏKAR

8. 1. Gəncləri məlumatlandırma xidmətləri peşəkar qaydada təlim keçmiş heyət tərəfindən aparılır.
8. 2. Gəncləri məlumatlandırma işçiləri media və informasiya savadlılığı bacarıqlarına malikdirlər.
8. 3. Gəncləri məlumatlandırma xidmətləri ehtiyacları müəyyənləşdirmək, sinergiya axtarmaq, təcrübəni böllüşmək və gənclər haqqında məlumatların görünən olması üçün müvafiq maraqlı tərəflərlə əməkdaşlıq edir.
8. 4. Gəncləri məlumatlandırma işçiləri yerli, regional, milli, Avropa və beynəlxalq səviyyədə əməkdaşlıqlar aparır, eləcə də biliklərini və ən yaxşı təcrübələrini bölüşürlər.
8. 5. Gəncləri məlumatlandırma işçiləri gənclərin onları hədəf alan rəqəmsal xidmətlərdən istifadə etmək üçün bilik və bacarıqlara sahib olmalarını təmin edir.

## 9. PROAKTİV

9. 1. Gəncləri məlumatlandırma xidmətləri gənclərə çatmaq üçün strategiya, metod və vasitələr seçimində yenilikçidir.
9. 2. Gəncləri məlumatlandırma işçiləri yeni inkişaflardan, müvafiq qanunlardan xəbərdardırlar və gənclər arasında baş verən tendensiyalar barədə özlərini məlumatlı saxlayırlar.
9. 3. Gəncləri məlumatlandırma işçiləri gənclərin məlumatlandırılması keyfiyyətinin görünən olmasını təmin etmək üçün media və informasiya sahəsində proaktiv iştirakçılardır.